**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası**
**“Könüllülər İli” ilə əlaqədar qrant müsabiqəsi**

**ELAN EDİR**

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası (bundan sonra – Şura) Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçmiş və müvafiq sahə üzrə ixtisaslaşmış QHT-ləri "Könüllülər İli” ilə əlaqədar qrant müsabiqəsində (bundan sonra – müsabiqə) iştirak etməyə dəvət edir.

Şura “Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası”na uyğun olaraq aşağıdakı mövzular üzrə layihələri qəbul edir:

| | **Müsabiqə mövzusunun adı** | **Bir layihə üçün maksimum məbləğ** |
|---|---|---|
| 1. | Region gəncləri arasında könüllü fəaliyyətin təşviqinə dair təşəbbüslər | 10000 (on min) manatadək |
| 2. | Könüllülük fəaliyyətinə dair sosial çarx və metodik vəsaitlərin hazırlanması | 10000 (on min) manatadək |
| 3. | Təbii fəlakətlər, qəzalar, yanğınlar, epidemiyalar və digər fövqəladə halların nəticələrinin aradan qaldırılması, o cümlədən bu hadisələrdə zərər çəkmiş şəxslərə müvafiq yardımların göstərilməsi ilə bağlı könüllülərin bilik və bacarıqların artırılmasına dair təşəbbüslər | 10000 (on min) manatadək |

Müsabiqədə iştirak edən QHT irəli sürdüyü problemin həlli ilə bağlı müvafiq sahələr üzrə zəruri potensialı olan işçi (ekspert) heyətinə malik olmalıdır.

**Layihələrin müddəti**
Layihələrin müddəti 2 aydan 4 ayadək ola bilər.

**Müsabiqə fondu:**
Müsabiqə fondu 100000 (yüz min) manat təşkil edir.

**Qeyd:**

- 2019-cu il yanvarın 1-dən sonra dövlət qeydiyyatından keçmiş QHT-lər 3000 (üç min) manatdan artıq olmayan məbləğdə layihə təklifləri ilə müraciət edə bilər.

**Müsabiqə mərhələləri**

Müsabiqə üzrə QHT və layihə sənədlərinin qəbulu 2 iyun 2020-ci ildən elektron qaydada həyata keçirilir. Müsabiqə prosesi 4 mərhələ üzrə aparılır:

- **1-ci mərhələ** - QHT və layihə sənədlərinin qəbulu;

Bu mərhələ 2-22 iyun 2020-ci il tarixlərini əhatə edir.

- **2-ci mərhələ** - QHT və layihə sənədlərinin texniki seleksiyası;

Bu mərhələ 2-25 iyun 2020-ci il tarixlərini əhatə edir. Təqdim olunan QHT və layihə sənədləri araşdırılır və layihənin qeydə alınıb-alınmaması barədə QHT-yə elektron bildiriş göndərilir.

- **3-cü mərhələ** - Qeydə alınmış layihələrin vətəndaşlar və ekspertlər tərəfindən qiymətləndirilməsi;

Bu mərhələ 29 iyun-13 iyul 2020-ci il tarixlərini əhatə edir. Qeydə alınmış layihələr bu mərhələdə Şuranın e-vətəndaş proqramı vasitəsilə vətəndaşlar və e-ekspertiza proqramı vasitəsilə ekspertlər tərəfindən elektron qaydada qiymətləndirilir.

- **4-cü mərhələ** - Şurada müzakirə və qaliblərin elan edilməsi;

Müsabiqənin nəticələri barədə məlumatlar 24 iyul 2020-ci ildən sonra Şuranın rəsmi saytında və digər internet resurslarında yerləşdiriləcək.